# Azərbaycan tam haqlıdır

## Beynəlxalq təşkilatlar, dövlət başçıları və siyasətçilər ölkəmizin mövqeyini bölüşür, Ermənistanın işğalçılıq siyasətini kəskin pisləyirlər



Düşmən təlaş içindədir. Çünki son 22 ildə ilk dəfə baş verən genişmiqyaslı hərbi əməliyyatlarda Azərbaycan Silahlı Qüvvələrinin modernləşməsi və döyüş qabiliyyətinin qüdrətini gördü. Başqa sözlə, Ermənistanın budəfəki təxribatı öz başında çatladı. Azərbaycan Ordusu ona sarsıdıcı zərbə vurdu. Tərtər və Füzuli istiqamətlərində düşmən möhkəmləndirdiyi ön xəttdən geri otuzduruldu.

Cəbhədə baş verənlərə beynəlxalq ictimaiyyətdən də reaksiyalar özünü çox gözlətmədi. Bu reaksiyalarda həm Ermənistanın işğalçılıq siyasəti pislənildi, həm Azərbaycan torpaqlarının azad edilməsi tələb edildi, həm də Azərbaycana dəstək ifadə olundu.

### Rəcəb Tayyib ƏRDOĞAN:
### “Türkiyə hər zaman Azərbaycanın yanındadır”

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan aprelin 2-də Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. O, Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində baş vermiş hadisələrlə bağlı dəstəyini və həmrəyliyini ifadə edib, Türkiyə xalqının hər zaman Azərbaycan xalqının yanında olduğunu bildirib. Rəcəb Tayyib Ərdoğan Ermənistanın təxribatı nəticəsində hərbi qulluqçularımızın həlak olması ilə bağlı başsağlığı verib.

Prezident İlham Əliyev başsağlığına görə minnətdarlığını bildirib və təşəkkür edib. Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində Türkiyənin hər zaman dəstəyinə görə minnətdarlığını çatdırıb, qardaş Türkiyə xalqına dərin hörmətini ifadə edib. Prezident İlham Əliyev bildirib ki, Ermənistan qoşunları təmas xəttində növbəti dəfə təxribat törədib, Azərbaycanın mövqelərinə hücum çəkib. Azərbaycan Silahlı Qüvvələri hücumu dəf edib, qarşı tərəf cavabını alıb.

“Əgər ATƏT-in Minsk qrupu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ədalətli, qətiyyətli fəaliyyət göstərib konkret nəticələr verə biləcək addımlar atsaydı, problemin həlli bugünədək uzanmazdı”. Bunu isə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan aprelin 2-də Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində baş verən gərginliyə münasibət bildirərkən deyib. O qeyd edib ki, illərdir işğal altında qalan Dağlıq Qarabağdakı bu münaqişə Minsk qrupunun fəaliyyətsizliyi səbəbindən bugünkü vəziyyətlə nəticələnib.

### Əhməd Davudoğlu Azərbaycanı təbrik edib

Türkiyənin Baş naziri Əhməd Davudoğlu da Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Türkiyənin Baş naziri Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində baş vermiş son hadisələrdə hərbi qulluqçularımızın həlak olması ilə bağlı başsağlığı verib, Ermənistanın təxribatının qarşısının alınması ilə əlaqədar təbriklərini çatdırıb və öz dəstəyini ifadə edib.

Prezident İlham Əliyev Azərbaycan Ordusunun təmas xəttində Ermənistanın təxribatının qarşısını qətiyyətlə aldığını və lazımi cavab verdiyini bir daha vurğulayıb.

### Belarus münaqişənin ərazi bütövlüyü prinsipi əsasında həllinə tərəfdardır

Aprelin 2-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Belarus Prezidenti Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində baş vermiş son hadisələrlə bağlı narahatlığını bildirib.

Prezident İlham Əliyev Belarus Prezidentini son hadisələrlə bağlı məlumatlandıraraq qeyd edib ki, Azərbaycan Silahlı Qüvvələri Ermənistan tərəfinin törətdiyi növbəti təxribatın və mövqelərimizə hücumun qarşısını alaraq qarşı tərəfə lazımi cavab verib.

ATƏT-in Minsk qrupuna üzv ölkə kimi Belarus davamlı olaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normaları, ilk növbədə, dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərin toxunulmazlığına riayət edilməsi və bunların təmin olunması prinsipləri, habelə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və ATƏT-in qərarları əsasında sülh yolu ilə həllinə tərəfdar çıxır.

Bu fikir Belarusun Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində baş vermiş son hadisələrlə bağlı açıqlamasında yer alır. Bəyanatda Belarusun Dağlıq Qarabağda ağır silahların işə salınması ilə fəal döyüş əməliyyatlarının yenidən başlanmasından dərin narahatlıq hissi keçirdiyi bildirilir.

### AŞ PA sədri Pedro AQRAMUNT:
### “Ermənistan silahlı qüvvələri işğal altındakı Azərbaycan torpaqlarından geri çəkilməlidir”

Avropa Şurası Parlament Assambleyasının sədri Pedro Aqramunt Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttindəki son hadisələrlə bağlı açıqlamasında baş verənlərdən çox narahat olduğunu və insanların ölümünə kədərləndiyini bildirib. AŞ PA sədri atəşkəsə əməl edilməsinin və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün danışıqların bərpa olunmasının vacibliyini qeyd edib. Azərbaycanın hücum tədbirlərini birtərəfli qaydada dayandırmaq qərarı verməsi ilə bağlı xəbəri də yüksək qiymətləndirib.

Pedro Aqramunt həmçinin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq, Ermənistan silahlı qüvvələrinin işğal altındakı Azərbaycan torpaqlarından geri çəkilməsinin vacibliyini vurğulayıb.

### Mövlud ÇAVUŞOĞLU:
### “Təmas xəttində Ermənistan tərəfindən təcavüz var”

Türkiyə istənilən məsələdə Azərbaycanın yanındadır. Bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dərhal həllinin tələb olunduğunu qeyd edən Mövlud Çavuşoğlu deyib: “BMT, Avropa Şurası və digər beynəlxalq qurumların müvafiq qərarları olsa da, heç kim səsini çıxarmır. Minsk üçlüyü nə işə yarayır? Bu gün Rusiya, ABŞ və Fransa bu məsələni həll etmək istəsə, bir həftəyə münaqişə həllini tapar. Münaqişəni həll etmədikləri üçün belə hadisələr baş verir. Biz heç zaman qarşıdurmaya can atmadıq, problemin dinc yolla həllini istəyirik. Əlbəttə, hər zaman qardaş Azərbaycanın yanındayıq. Nə zaman, hansı mövzuda bizə ehtiyacı olarsa, Azərbaycanın yanındayıq”.

Azərbaycanın münaqişəni dinc yolla həll etmək istədiyini qeyd edən Çavuşoğlu bildirib ki, təmas xəttində Ermənistan tərəfindən təcavüz var: “Azərbaycan əlbəttə ki, cavab verməli olur. Lakin bu, Azərbaycanın seçimi deyil. Azərbaycan işğal olunmuş torpaqlarını dərhal geri almaq istəyir, lakin bunu dinc yolla etmək istəyir. Ümid edirəm ki, bir daha belə bir qarşıdurma baş verməz və münaqişə tez bir zamanda həllini tapar”.

Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində baş verən gərginliyə münasibət bildirən Türkiyənin Xarici İşlər Nazirliyi də şəhid olan Azərbaycan əsgərlərinə Allahdan rəhmət, yaxınlarına səbir, yaralılara şəfalar diləyərək Ermənistanı atəşkəs rejiminə əməl etməyə və işğala son qoymağa dəvət edib. XİN-in bəyanatında bildirilir ki, yaranmış gərginliyə səbəb Ermənistanın Azərbaycan torpaqlarının beşdə birini işğal altında saxlaması, təcavüzkar mövqeyindən əl çəkməməsidir. Diqqətə çatdırılır ki, təcavüzkar Ermənistan BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal altındakı ərazilərinin azad edilməsi ilə bağlı məlum qətnamələrini yerinə yetirməlidir. Dağlıq Qarabağ münaqişəsinin həlli üçün yaradılan ATƏT-in Minsk qrupunun üzvü olan Türkiyə problemin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində, ədalətli həllinin tapılması istiqamətindəki səylərini bundan sonra da davam etdirəcək.

### İƏT Baş katibi İyad bin Amid MƏDƏNİ:
### “Azərbaycanın işğal olunmuş əraziləri dərhal azad edilməlidir”

Erməni silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərini dərhal və qeyd-şərtsiz azad etməlidirlər. İslam Əməkdaşlıq Təşkilatının Baş katibi İyad bin Amid Mədəninin bəyanatında belə deyilir. Baş katib Dağlıq Qarabağda baş verənləri dərin narahatlıqla izlədiyini bildirib: “BMT Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş əraziləri ilə bağlı 4 qətnamə qəbul edib. Bu qətnamələr hələ də yerinə yetirilmir”.

### Pakistan Müdafiə Nazirliyi:
### “Pakistan xalqı Ermənistanla münaqişədə Azərbaycanı dəstəkləyir”

Daim Azərbaycanı dəstəkləyən Pakistan cəbhə bölgəsində baş verən gərgin münaqişədən sonra bir daha ölkəmizin yanında olduğunu açıqlayıb. Bu ölkənin Müdafiə Nazirliyinin “Facebook” səhifəsində Azərbaycan bayrağının rəsmi paylaşılıb və həmin foto səhifənin örtük şəkli kimi yerləşdirilib. Paylaşılan foto belə təqdim olunub: “Pakistan xalqı Ermənistanla münaqişədə Azərbaycanı dəstəkləyir, Dağlıq Qarabağ regionu Azərbaycana məxsusdur”.

### Britaniyalı deputatlar:
### “Ermənistanın təcavüzünə son qoyulmalıdır”

“BMT Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasını təmin etməlidir”. Bunu Böyük Britaniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri, deputat Bob Bləkman Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində düşmən tərəfindən atəşkəsin pozulması ilə əlaqədar bəyanatında bildirib. O qeyd edib ki, uzun müddətdir təmas xəttində gərginlik artmaqda idi. Hazırda cəbhə bölgəsində ağır döyüşlər gedir. BMT bu qurumun Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrində göstərildiyi kimi, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasını təmin etməlidir.

“BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməli və Ermənistanın təcavüzünə son qoyulmalıdır”. Bu fikri isə Böyük Britaniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədr müavini Lord Kilkuni Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində vəziyyətin gərginləşməsi ilə əlaqədar verdiyi açıqlamada deyib. “Mən dəfələrlə demişəm ki, ATƏT-in Minsk qrupu Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarının Ermənistanın işğalından azad olunması məsələsini həll edə bilməyib. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi var ki, onlar Ermənistandan Azərbaycanın işğal olunmuş ərazilərindən çıxmağı tələb edir. Bu qətnamələrin tələblərinə məhəl qoyulmayıb. Bunun nəticəsində Ermənistan tərəfindən cəbhə xəttində ciddi gərginlik yaradılıb və təxribat baş verib. Bu, 1994-cü ildə atəşkəs elan edildikdən sonra baş verən ən böyük zorakılıq halı kimi qiymətləndirilməlidir. Biz bu qətnamələrin icrasına nail olmalı və təcavüzü dayandırmalıyıq" - deyə britaniyalı deputat bildirib.

### Stefen HEPBURN:
### “Ermənistan rəhbərliyinə qarşı sanksiyalar tətbiq olunmalıdır”

Böyük Britaniya parlamentinin digər deputatı Stefen Hepburn da Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində baş vermiş son hadisələrlə bağlı bəyanat verib. “Son 20 il ərzində ən ağır döyüşlər və Ermənistanın Azərbaycana qarşı insan tələfatı ilə nəticələnən hərbi təcavüzü məni dəhşətə gətirir.

Dünya birliyi Ermənistanı məcbur etməlidir ki, BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ və ətraf rayonlardan çıxmağı tələb edən dörd qətnaməsinin tələblərini yerinə yetirsin. Artıq bunun vaxtıdır və Ermənistan bu qətnamələrə riayət etmirsə, onun rəhbərliyinə qarşı müvafiq sanksiyalar tətbiq olunmalıdır” - deyən britaniyalı deputat onu da bildirib ki, Azərbaycana qarşı həyata keçirilən insan tələfatı və təcavüz siyasətinə son qoyulmalıdır.

### Fransalı senator Andre REİXARDT:
### “Azərbaycan ərazisinin 20 faizinin işğal altında qalmasını qəbul edə bilməz”

Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində düşmən tərəfindən atəşkəsin pozulmasına fransalı deputatlar da münasibət bildiriblər. Fransa Senatındakı Fransa-Qafqaz dostluq qrupunun prezidenti, senator Andre Reixardt Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində düşmən tərəfindən atəşkəsin pozulması ilə əlaqədar bəyanatla çıxış edib.

Bəyanatda deyilir: “Aydındır ki, Ermənistan və Azərbaycan arasında olan münaqişə heç də dondurulmuş deyil. Mövcud status-kvo qəbuledilməzdir. Biz tezliklə həll yolu tapmalıyıq. ATƏT-in Minsk qrupu heç bir səmərə verməyən “addım-addım” strategiyasından imtina etməli və hərəkətə keçməlidir. Azərbaycan özünün Dağlıq Qarabağ və ətraf yeddi rayonun - ərazisinin 20 faizinin işğal altında qalmasını və Ermənistana dəhliz kimi istifadə olunmasını qəbul edə bilməz. BMT Təhlükəsizlik Şurasının erməni qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələri icra edilməlidir. Biz heç nə baş verməmiş kimi davranmağa davam edə bilmərik. Bu qətnamələr Ermənistana görə icra edilmir və azərbaycanlıların narazılığı bizi təəccübləndirməməlidir. Düzdür, Suriyada və ya İraqda baş verənlərlə müqayisədə bu münaqişə başqalarından daha az əhəmiyyətli görünə bilər. Lakin bu münaqişə nəzarətdən çıxmaq üzrədir və insan itkiləri həddindən artıq çoxdur. Biz həll yolu tapmalıyıq”.

### Natali QULE:
### “Azərbaycana qarşı erməni təcavüzü pislənməlidir”

Fransalı senator Natali Qule isə Azərbaycana qarşı erməni təcavüzünü pisləyərək BMT Təhlükəsizlik Şurasının təcili iclasının keçirilməsini tələb edib. O, ATƏT-in Minsk qrupu həmsədrlərinin məsələyə kifayət qədər diqqət yetirmədiyinə görə çox təəssüfləndiyini bildirib. Natali Qulenin sözlərinə görə, Dağlıq Qarabağ münaqişəsi barəsində istifadə edilən “dondurulmuş münaqişə” termini, status-kvonun saxlanılmasının səbəbidir. Senator deyib ki, əslində, dondurulmuş münaqişənin dondurulmuş həlli olur: “Azərbaycan xalqına sözsüz güclü dəstək kimi mən BMT Təhlükəsizlik Şurasının təcili iclasının keçirilməsini çağırıram və Azərbaycana qarşı erməni təcavüzü pislənməlidir. Neçə illərdir sürən işğaldan sonra münaqişənin həll olunması vaxtı çatıb, çünki dünyaya Cənubi Qafqazda yeni hərbi əməliyyatlar səhnəsi lazım deyil. Biz bütün əlaqədar tərəfləri ədalətli həlli tapmağa cəlb edə və Dağlıq Qarabağın erməni işğalından qurtarılmasına kömək edə bilərik”.

### Bundestaqın deputatı Mark HAUPTMANN:
### “Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağ bölgəsindən çıxarılması prosesi çox gecikdirilib”

Almaniya Bundestaqının deputatları da Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində baş vermiş son hadisələrlə bağlı bəyanat veriblər. Deputat Mark Hauptmannın bəyanatında bildirilir ki, Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağ bölgəsindən çıxarılması prosesi çox gecikdirilib. Bu, azərbaycanlı məcburi köçkünlərin təhlükəsiz şəraitdə doğma torpaqlarına qayıtmaları üçün zəruridir. Birləşmiş Millətlər Təşkilatının müvafiq qurumları keçmişdə bunu təkrar-təkrar bildirib və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını birmənalı şəkildə tələb edib.

Bundestaqın deputatı vurğulayıb ki, Almaniya və Avropa İttifaqı Dağlıq Qarabağın işğal altında qalmasına qarşı çıxır. Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in və Avropa Şurasının münaqişəyə dair qəbul etdikləri sənədlər icra olunmalıdır. “Biz beynəlxalq tərəfdaşlarımızla sülh prosesini açıq şəkildə dəstəkləyirik. Firavanlıq və inkişaf yalnız daimi sülh vasitəsilə təmin edilə bilər. Bu günlərdə baş verən silahlı toqquşmalar bir daha göstərdi ki, münaqişə hər an yenidən alovlana bilər. Ona görə də regionda bütün tərəflər arasında həll yolunun tapılması üçün davamlı sülh prosesi çox vacibdir”.

Bundestaqın Xristian Demokrat İttifaqından olan deputatı Olav Quttinq isə Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində baş vermiş son hadisələrlə bağlı açıqlamasında bildirib ki, Almaniya mülki vətəndaşlara qarşı istənilən hərbi təcavüzü pisləyir. O, Azərbaycanın ərazi bütövlüyünə qarşı hərbi təxribatın və hücumların qəbuledilməz olduğunu vurğulayaraq qeyd edib ki, Ermənistanın bu hərəkətləri ATƏT-in Minsk qrupunun məqsədlərinə ziddir və təkcə beynəlxalq hüququ deyil, həmçinin xarici siyasətimizin mənəvi dəyərlərini pozur.

### Bosniya və Herseqovinanın sabiq Baş nazirindən Azərbaycana dəstək

Bosniya və Herseqovinanın Müştərək Cəmiyyətlər və Dəyərlər Fondunun rəsmi Tvitter səhifəsində Azərbaycana dəstək ifadə olunub. Belə ki, Azərbaycanın dövlət bayrağının əks olunduğu fotonun üzərində “Biz sizinləyik” yazısı və Azərbaycanda sülhə dəstək həştəqi (#peace #support #Azerbaijan) paylaşılıb.

Qeyd edək ki, Müştərək Cəmiyyətlər və Dəyərlər Fondu 2014-cü ildə Sarayevoda Bosniya və Herseqovinanın sabiq Baş naziri Zlatko Lagumciya tərəfindən təsis olunmuş qeyri-hökumət təşkilatıdır.

Bosniya və Herseqovinan sabiq Baş naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Zlatko Lagumciya martın 10-11-də IV Qlobal Bakı Forumunda iştirak edib.

### Fransada Azərbaycanın Dostları Assosiasiyası Ermənistanın son təxribatını pisləyib

Fransa Milli Assambleyasının deputatı, Azərbaycanın Dostları Assosiasiyasının sədri Jan Fransua Mansel aprelin 2-də Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı törətdiyi son təxribatı pisləyən bəyanat verib.

Bəyanatda bildirilir ki, assosiasiya Ermənistanın növbəti təxribatı nəticəsində baş vermiş son döyüşlərin günahsız qurbanlarına rəhmət diləyir, onların ailələrinə, eləcə də Azərbaycan xalqına başsağlığı verir və onları dəstəklədiyini vurğulayır. Assosiasiya ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin illərdən bəri əsassız və faciəvi qarşıdurmalara aparan status-kvoya hələ də son qoymadıqlarına təəssüfləndiyini bildirir, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə riayət olunmasını arzulayır.

Bəyanatda həmçinin Azərbaycanın Qarabağda atəşi birtərəfli qaydada dayandırması alqışlanır.

Assosiasiya bütün tarixi həqiqətləri əksinə təqdim edən, başladığı münaqişənin qurbanına çevrilən Ermənistanı da atəşi dayandırmağa çağırır.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***